UOT 336.71

*i.e.n., dos. Ləman Aydın qızı MƏMMƏDOVA,*
*Aytəkin Paşa qızı MƏMMƏDOVA*
*magistr*
*Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: aytekinmemmedova265@gmail.com*

# MÜƏSSİSƏNİN MALİYYƏ RESURSLARININ FORMALAŞMASI VƏ ONDAN SƏMƏRƏLİ İSTİFADƏ MEXANİZMİ

**Xülasə**

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi maliyyə resurslarının formalaşmasının nəzəri və metodoloji əsaslarının öyrənilməsi və resurslardan istifadə aspektlərinin konseptual əsaslarının müəyyənləşdirilməsidir.Bununla da müəssisənin maliyyələşdirilməsi potensialının artırılması və maliyyələşmənin proqnozlaşdırılması sisteminin metodologiyasının hazırlanması, bununla yanaşı maliyyələşmədə davamlılığın təhlili,müəssisənin maliyyə potensialının müəyyən edilməsi üçün maliyyə nəticələrinin qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

**Tədqiqatın metodologiyası:** Tədqiqatda ümumiləşdirmə ilə yanaşı təhlil metodlarından da istifadə olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyətləri:** Maliyyə resurslarının formalaşması və səmərəli istifadəsi hər bir müəssisənin yüksək likvidlik və sabitlik üzrə inkişafında, həmçinin müəssisənin bazara əlverişli inteqrasiyasının təmini, müəssisənin maliyyə problemlərinin vaxtında həllində əsas göstərici ola bilər.

**Tədqiqatın nəticələri:** Hazırkı dövrdə müəssisələrin maliyyə potensialının formalaşması və artırılması ən vacib məsələlərdəndir. Bu problemin araşdırmaları onu göstərir ki, bu sahədə həllini tapmayan bir çox problem var.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:**

- Müəssisənin maliyyə resurslarının formalaşmasının mənbələri təhlil edilmişdir;
- Maliyyə resursları və ondan istifadənin iqtisadi səmərəliliyinin artırılmasının əsas istiqamətləri müəyyən edilərək əsaslandırılmışdır;
- Müəssisənin maliyyə resurslarının formalaşması və ondan səmərəli istifadə problemlərinin həlli məsələləri kompleks öyrənilmişdir.

***Açar sözlər: maliyyə, maliyyə resursları, mənfəət, maliyyə-təsərrüfat fəaliyyəti.***

## *Giriş*

Mülkiyyət növündən və təşkilati formasından asılı olmayaraq müəssisələrin normal və sabit fəaliyyəti üçün mühüm olan məsələ yetərli həcmdə maliyyə resurslarının olmasıdır. Müəssisə tərəfindən maliyyə öhdəliklərini yerinə yetirmək üçün toplanmış daxili aktivlərin, pul vəsaitləri daxilolmalarının və xarici borcların, cari xərclərin və istehsal məsrəflərinin məcmusu maliyyə resursları adlanır.

Müəssisələr öz maliyyə resurslarından tam sərbəst istifadə edə bilərlər, lakin daha yüksək iqtisadi səmərə əldə etmək üçün bu vəsaitlərdən qənaətlə və səmərəli istifadə etməlidirlər [3, s. 89].

İqtisadçılar korporativ maliyyə resurslarının formalaşması, maliyyə potensialı ilə borc problemləri arasında əlaqəyə dair müxtəlif dərəcəli tədqiqatlar aparmışlar. R.Bahl, S.Wallace, H.Baekgaard, R.Bergmann Barbara, V.Kapur, A.Klevmaken, T.Mirer, G.Orkutt, E.Symons, P.Krugman, C.Eaton, C.Sach və s. əsərlərində bu problemlərin həlli yollarını araşdırmışlar. Bu tədqiqatlarda maliyyə resursları potensialının formalaşması mənbələri müəyyən olunmuşdur, istifadəsinin qiymətləndirilməsi aparılmışdır,müəssisənin gələcək fəaliyyətinin proqnozlaşdırılması və digər məsələlər bir-biri ilə əlaqəli şəkildə öyrənilmişdir.

Rusiya alimləri S.Sutirin, L.Dukaniç, T.Yutkina, D.Çernik, A.Paçinok, V.Morozov, A.Vavilov və başqaları əsərlərində göstərirlər ki, maliyyə resurslarının formalaşması və qiymətləndirilməsi sahəsində kifayət qədər potensial ehtiyatlar mövcuddur.Belə ki ,bu sahədə maliyyə potensialı və xarici borc sahəsində müəyyən elmi tədqiqatlar aparılsa da, maliyyə və vergi potensialının ümumi iqtisadi baxımdan reallaşdırılması imkanları hələ də öyrənilməmişdir.

Azərbaycanlı iqtisadçı alimlər A.Nadirov, Z.Səmədzadə, Ş.Muradov, A.Ələsgərov, A.Nuriyev, S.Səfərov, S.Səmədzadə, Q.İmanov, A.Musayev, V.Novruzov, M.Həsənli, A.Əlirzayev, D.Bağırov, A.Abbasov, S.Məmmədov, M.Sadıqov və başqaları maliyyə resurslarının formalaşması və istifadəsi ilə bağlı elmi tədqiqat işləri aparmışlar .Bu problemin həllinə dair çoxlu sayda iqtisadi ədəbiyyatlar çap olunub. İqtisadçı alimlərimizin bu məsələ ilə bağlı apardıqları elmi araşdırmaları yüksək qiymətləndirmək olar.Qeyd etmək istərdim ki, tədqiqat metodlarının iqtisadi kateqoriyası kimi maliyyə potensialı və onların qiymətləndiriməsi və proqnozları sahəsində problemlər qalmaqdadır.

**Müəssisənin maliyyə resurslarının təşkili**

Müəssisənin maliyyə resursları müəyyən bir təsərrüfat subyektinin sərəncamında olan bütün pul vəsaitlərinin və gəlirlərinin məcmusu hesab olunur. Maliyyə resursları müəssisənin gəlirlərinin yaradılması, bölüşdürülməsi və istifadə olunması prosesini əks etdirir. Müəssisə səviyyəsində dövlət büdcəsi, banklar, təchizatçılar, sığorta təşkilatları və digər müəssisələr qarşısında öhdəliklərini yerinə yetirmək üçün xüsusi pul fondları (əməkhaqqı fondları, istehsalın inkişafı fondları, maddi həvəsləndirmə fondları və s.) yaratmaq üçün maliyyə resurslarından istifadə olunur. Maliyyə resursları xammal, işçi qüvvəsi alınması və s. üçün istifadə olunur. Maliyyələşmənin maliyyə resursları müəssisələrin xüsusi fondlarının və cəlb olunan vəsaitlərinin hesabına yaranır [6, s. 51].

Müəssisələrdə maliyyə resurslarının özülü mənfəət hesab olunur. Mənfəət hər hansısa bir mülkiyyətçi müəssisənin yaratdığı əmanətlərin valyuta ifadəsidir. İqtisadi kateqoriya kimi mənfəət korporativ maliyyə fəaliyyətinin nəticəsini təmsil edir. Mənfəət iki funksiyaya malikdir: biri geniş miqyaslı təkrar istehsalın əsas maliyyə resursu, ikincisi, dövlət büdcəsinin gəlir mənbəyidir. Mənfəət ölkənin, təsərrüfat subyektlərinin və hər bir işçinin iqtisadi maraqlarını özündə toplayır.

Mənfəət, şirkətin maliyyə-təsərrüfat fəaliyyətini mövcud olan hər bir aspektdən səciyyələndirir. Məhz bu səbəblə də təsərrüfat subyektlərinin mənfəətinin artması ölkənin maliyyə resurslarının artmasına, maliyyə sisteminin möhkəmlənməsinə yol açır. Təsərrüfat subyektlərinin istehsal-maliyyə təsərrüfat fəaliyyətinin yekun nəticələri balansın mənfəətində əks olunur. Balans mənfəətinə mühüm olan məhsulların (mühəndislik və xidmətlər) istehsalı və satışından əldə edilən mənfəət, digər məhsulların satışından əldə edilən mənfəət və satışdankənar müəssisələrdən əldə olunan mənfəət (cərimələr və s.) daxildir.

“Maliyyə resursları” kateqoriyasının əhəmiyyətinin aydın və əsaslı izahı onun daxili strukturunu, təsərrüfat dövriyyəsində rolunu, maliyyə münasibətlərinin maddi daşıyıcısı kimi maliyyə resurslarının daxili funksiyasını müəyyən etməkdən ibarətdir. Maliyyə resurslarının kateqoriyalarına nəzər saldıqda, diqqət yetirilməli olan birinci metod şərti kateqoriyaların rasionallığıdır ki, onların elmi cəhətdən təsdiqlənməsi də mümkündür. Elmi ədəbiyyatda nəzərdən keçirilən məsələlərdə üç əsas metodoloji yanaşma mövcuddur [8, s. 225].

Bəzi iqtisadçılar maliyyə resurslarının dövriyyələrin həddini, daha dəqiq desək, idarəetmə səviyyəsini hədəf (dövlət maliyyə resursları, müəssisə və təşkilat resursları və s.) maliyyə resurslarının başlanğıc nöqtəsi hesab edirlər. Bununla belə, A.M.Birman və T.V.Quyda hesab edirlər ki, “bu üsul adətən iqtisadiyyatda istifadə olunan bütün valyutaların cəmindən uyğunsuzluqlara, yenidən hesablamalara və maliyyə resurslarının müəyyənləşdirilməsinə səbəb olur”.

Digər bir qrup elm adamı isə maliyyə resurslarının yaradılış mənbəyini – məcmu ictimai məhsullarla bağlı olaraq seçir. Maliyyə resurslarının miqdarını müəyyən edərkən, ümumi ictimai məhsuldan müəyyən xərclərin, əsasən sadə təkrar istehsalla bağlı xərclərin çıxılması üsulunu tövsiyə edirlər.

Müəssisələrdə maliyyə resurslarının təşkilinin ümumi prinsipləri aşağıda qeyd olunmuşdur: [6, s. 58].

Birinci prinsip. Müəssisənin maliyyə gücü xüsusi vəsaitlərin, subsidiyaların və vəsaitlərin cəlb edilməsi yolu ilə yaranır. Xüsusi maliyyə resurslarının ilkin olaraq yaradılması müəssisənin (təşkilatın) təsis olunmasında yəni nizamnamə fondlarının (nizamnamə kapitalının) yaradılması zamanı baş verir.

Müəssisələrin təsərrüfat fəaliyyətini həyata keçirmək üçün müvafiq maliyyə dəstəyi olmalıdır. Müəssisələrin maliyyə resurslarının zəruri mənbələrindən biri ilkin kapital sayılır. İlkin kapital cəmiyyətin təsisçisinin səhmləri vasitəsilə yaranır və nizamnamə kapitalı formasındadır.

Nizamnamə kapitalının formalaşdırılması üsulu müəssisənin təşkilati formasından və hüquqi formasından asılı olur. Nizamnamə kapitalı fondları mühüm olan vəsaitlərin alınmasına, normal istehsal-təsərrüfat fəaliyyəti üçün lazım olan dövriyyə vəsaitlərinin formalaşdırılmasına istiqamətlənir. O, həm də patentləri, lisenziyaları, nou-hauları və s. əldə etmək üçün istifadə edilə bilər. İstehsala qoyulan ilkin vəsait, məhsul qiymətlərində öz əksini tapmış dəyər formalaşdırır. Məhsul satıldıqdan sonra, o valyuta formasını - gəlir (satış) formasını yaradır.

Professor V.M.Radinova müəssisələrin maliyyə resurslarına belə tərif verir: “Müəssisənin maliyyə resursları təsərrüfat subyektlərinin sərəncamında olan, həmçinin maliyyə öhdəliklərinin yerinə yetirilməsi, geniş miqyaslı təkrar istehsal və iqtisadi stimullaşdırma xərcləri üçün istifadə olunan pul gəlirləri, daxilolmalarıdır”. Sonra müəllif maliyyə resurslarını 3 kateqoriyaya ayırır: [7]

- xüsusi vəsait və ona cəlb edilən vəsait hesabına yaradılması;
- maliyyə bazarından (mobilizasiya) səfərbər olunan;
- yenidən bölüşdürülməsi yolu ilə daxil edilən.

Birinci qrup resurslara aşağıdakı qeyd olunanlar daxildir:

- pul gəlirlərinin müəyyən hissəsi (İlk olaraq əməliyyat fəaliyyətindən mənfəət və başa çatmış (tamamlanmış) təsərrüfat və maliyyə əməliyyatları vasitəsilə elmi-tədqiqat işlərindən (ETİ), tikinti-quraşdırma işlərindən (TQİ) mənfəət);
- pul vəsaitləri, gəlirlər (amortizasiya ayırmaları, itirilmiş əmlakın satışından əldə edilən gəlirlər, sabit öhdəliklər, vətəndaşlardan məqsədli gəlirlər, tikintidə daxili resursların mobilizasiyası, digər gəlir növləri);

Professor D.S.Molyakovun sözlərinə görə ümumi mənfəət üçün xüsusi proqramlar və fondlar şirkətlərin ödənişlərdən vəsaitləri gəlirlərə cəlb etmək məqsədi daşıdıqları vəsaitlərin həcmini azaldır.

İkinci kateqoriyaya xüsusi səhm istiqrazlarının və digər qiymətli kağızların inkişafı, habelə kredit qoyuluşu daxildir.

Üçüncü kateqoriyaya isə, sığorta haqları, dividendlər və digər emitentlərin qiymətli kağızları üzrə faizlər (birinci qrup planların maliyyə resursları üçün maliyyə yardımının qiyməti kağız üzərində saxlanılan spekulyativ əməliyyatlar), büdcə subsidiyaları və digər növ resurslar daxildir.

Maliyyə resurslarının mahiyyətini müəyyən etməyin başqa bir üsulu ondan ibarətdir ki, maliyyə resurslarının mahiyyətini onların funksiyaları ilə ifadə etmək üçün “maliyyə resursları” və “maliyyə” kateqoriyaları arasında əlaqə yaradılır və sonra istifadə edilir. Hər bir maliyyə münasibəti həmişə dəyərin müəyyən bir hissəsinin valyuta şəklində hərəkəti ilə müşayiət edilir. Belə ki, hər hansı maliyyə münasibətlərinin fiziki təzahürü gəlir, ayırmalar və daxilolmalar şəklində mövcud olan pul vəsaitləridir. Maliyyə və maliyyə resursları arasındakı əlaqədən aşağıdakı nəticələr çıxarmaq olar. Maliyyə bölgü funksiyasına malikdir və onun materialı maliyyə resurslarında əks olunur [1, s.105].

**Müəssisənin maliyyə resurslarının təşkili**

Maliyyə resurslarının təsisi onun səmərəliliyinin ümumi mürəkkəbliyinin təmin edilməsində mühüm rol oynayır. Maliyyə resurslarının təşkilinin mühüm prinsipləri bunlardır:

1) Maliyyə resurslarının tərkibi və strukturu;
2) Maliyyə resurslarının mənbələrini yaradan təşkilatlar;

**Müəssisənin maliyyə resurslarının tərkibi**




***Şəkil 1. Müəssisənin maliyyə resurslarının quruluşu və mənbələri [6, səh 56].***

3) Müəssisənin maliyyə resurslarına olan tələbatını müəyyən etmək;
4) Məqsədlərə uyğun olaraq maliyyə resurslarından məqsədyönlü istifadə;
5) Maliyyə resurslarının mühafizəsi.

Maliyyə resurslarının tərkibi onları təşkil edən elementlərin məcmusudur. Maliyyə resurslarının strukturu dedikdə, maliyyə resurslarını təşkil edən müxtəlif elementlər arasındakı əlaqə, yəni hər bir elementin müəssisənin ümumi maliyyə resurslarında payı nəzərdə tutulur. İqtisadiyyatın müxtəlif sahələrində və alt sektorlarında maliyyə resurslarının tərkibi və strukturu eyni olmur. Məhz onlar istehsal, iqtisadiyyat və təşkilati strukturun bir çox amilləri ilə müəyyən edilir. Metallurgiya və maşınqayırma kimi kapital tutumlu sənaye sahələrində amortizasiya xüsusi maliyyə resurslarının mühüm hissəsidir [2, s. 96].

Ümumi gəlir yüngül sənaye və ticarətin böyük bir hissəsini tutur. Bundan əlavə, resurs bölgüsü aşağıdakı xüsusiyyətlərə görə təsnif edilə bilər: məqsədli və çoxməqsədli maliyyə resursları. Ümumilikdə maliyyə resurslarının məqsədyönlü istifadəsinə pul vəsaitlərinin yaradılması və istifadəsi yolu ilə nail olmaq mümkündür.

Daha əvvəl qeyd edildiyi kimi, maliyyə resursları iki formada yaradıla və istifadə edilə bilər: fond və qeyri-fond.

Məhz maliyyə resurslarının formalaşmasına görə, borclara, həmçinin də xüsusiyə bölünməsi mühüm əhəmiyyət kəsb edir. D.S.Molyakov "Müəssisə maliyyəsinin aktual problemləri” məqalə-

sində qeyd edirdi: “Maliyyə resurslarının mənbə strukturu, ilk növbədə, xüsusi mənbələrin nisbi ağırlığı çox vacibdir. Bu gün istehsalçılar hər yerdə təşkilati maliyyə problemlərini həll etməyə çalışırlar. Bunlar xüsusi resursların axtarılması, əsasən bank və kommersiya kreditləri hesabına həyata keçirilir. Borc vəsaitlərinin nisbi ağırlığı şirkətlərin maliyyə fəaliyyətini və balans likvidliyini çətinləşdirir, kommersiya banklarının kredit faiz ödənişləri yüksək olur”. Odur ki, professor D.S.Molyakovun mövqeyi kapitalın nisbətən optimal strukturunda iştirak edən resursların minimuma endirilməsinə səbəb olmuşdur.

Balansın likvidliyi ilə yanaşı, xüsusi fondların rentabelliyini də diqqətdə saxlamaq lazımdır. Dilemma yaranır: likvidlik, yoxsa rentabellik? Bundan əlavə, toplanan vəsaitlər (xüsusi resurslar olmadıqda) adətən biznesin yeganə etibarlı mənbəyidir. Maliyyə resurslarının mühafizəsinin təmin edilməsi şirkətlərin qarşısında duran mühüm məsələdir. Bu məqsədlə müəssisənin maliyyə resurslarına ehtiyacını müəyyən etmək lazımdır [5, s. 210].

Azərbaycanda iqtisadi bazar münasibətlərinin inkişafının indiki mərhələsində müəssisənin maliyyə resurslarının “sərbəst balansından” bilavasitə asılı olan dövriyyə vəsaitlərinə tələbinin müəyyənləşdirilməsi (normallaşdırılması) xüsusilə zəruridir. Hiperinflyasiya və “vəhşi bazar” dövründə şirkətlər öz anbarlarını kortəbii və nəzarətsiz doldura bilməzlər, həmçinin də müəssisə sübut etməlidir ki, maliyyə resurslarını effektiv idarə etmək üçün resursların idarə edilməsi sistemi Qərbin qabaqcıl nəqliyyat idarəçiliyinin əsas komponentidir [1, s. 256].

Müəssisənin öz maliyyə resurslarının təşkili prinsipi - müəssisənin ehtiyaclarını müəyyən etməkdir - maliyyə proqnozlaşdırılması prosesinin ehtiyaclarından və maliyyə resurslarından səmərəli istifadədən asılıdır. Maliyyə proqnozlaşdırılması prosesində qarşıdakı dövrün əvvəlində maliyyə resurslarının mümkün profisiti və ya kəsiri olub-olmadığını müəyyənləşdirmək gərəkdir.

Əgər planlaşdırılan tələb müəssisənin ümumi maliyyə resurslarından artıq olarsa, maliyyə resurslarında çatışmazlıq yaranır. Bu vəziyyətin bir çox səbəbi var: [4]

- cari təsərrüfat fəaliyyəti nəticəsində yaranan itkilərə görə amortizasiya həddinin aşılması;
- hesabat ilində elan edilmiş təsadüfi itkilər və əvvəlki illərdəki itkilər;
- maliyyə vəziyyəti pis olduqda dividendlər;
- böyük məbləğdə əsas kapitala investisiya qoyuluşu;
- şirkətin əvvəlcədən almadığı istiqrazların və ya səhmlərin ödənilməsi;
- material qiymətlərinin yüksək olması.

Vəsait çatışmazlığına səbəb olan müəssisələr, ona cəlb olunan vəsaitlər səbəbi ilə, müvəqqəti yaxud daimi olaraq artıra bilərlər. Müxtəlif hallarda, maliyyə resurslarının artıqlığı aşağıda qeyd olunmuş səbəblərdəndir:

- kapital qoyuluşundan artıq olan səhm və istiqrazların çıxarılması;
- investisiya edərkən korporativ mənfəəti saxlamaq;
- köhnəlmiş əmlakın satışı;
- köhnəlmə amortizasiya maddələrinin sonradan əvəz edilməsini müşayiət etməyən amortizasiya.

Onu da qeyd edim ki, ümumiyyətlə dövlətin həyata keçirdiyi maliyyə siyasəti müəssisələrin normal olan təsərrüfat-maliyyə fəaliyyətini çətinləşdirə, yaxud müəssisələrin maliyyə resurslarından səmərəli istifadəsini stimullaşdıra bilər. Məhz burada milli vergi siyasəti mühüm əhəmiyyət kəsb edir.

Fikrimcə, müəssisənin maliyyə resurslarını təşkil etmək üçün onun pozuntuları və statistik məlumatları əsasında, təsərrüfat uçotu hesabatları, sorğular və yoxlamalar vasitəsilə səmərəli istifadəsinə sistemli şəkildə nəzarət etmək lazımdır.

### *Nəticə*

Araşdırmalarımdan belə nəticəyə gəlirəm ki, qiymətləndirmə subyektlərinin maliyyə resurslarının idarə edilməsi effektivliyi aktivlərin investisiyalarının qiymətləndirilməsinin effektivliyi ilə sıx bağlıdır, çünki bu investisiyalar konkret və cəlb olunmuş maliyyə resurslarına malikdir.

Maliyyə resurslarının xarakterinə görə onlar əsasən ümumi istehsal ehtiyaclarının maliyyələşdirilməsinə, xüsusən istehsalın genişləndirilməsinə yönəldilir.

Ümumiyyətlə belə bir nəticəyə gəlmək məntiqlidir ki, maliyyə resurslarından istifadənin səmərəliliyi onların investisiyalarının səmərəliliyindən asılıdır. Yəni investisiya bir proses kimi istehsalın genişləndirilməsi prosesində maliyyə münasibətlərinin maddi daşıyıcısı kimi maliyyə resurslarının mahiyyətini təcəssüm etdirir.

Müəssisə iqtisadiyyatının davamlı maliyyə potensialının formalaşması onun müəssisənin prioritet sahələrində səmərəli yerləşdirilməsi və istifadə edilməsindən asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi məhz onu göstərir ki, maliyyə imkanlarının gücləndirilməsi məsələsi mürəkkəb və zəngin sistemli məsələdir. Problemin tərkib hissələri ilk növbədə maliyyə resurslarının formalaşması və realizə mexanizmini müəyyən etmək, maliyyə resurslarının strukturunun optimallaşdırılması vəzifəsini müəyyən etmək, həmçinin də problemin həlli istiqamətini dəqiqləşdirməkdir.

Maliyyə resurslarının formalaşdırılması, həmçinin də onun faydalı istifadəsi hər bir müəssisənin inkişafı (yüksək likvidlik və dayanıqlıq), müəssisələrin iri müəssisələr arasında səmərəli inteqrasiyasının təmin edilməsi, ölkənin iqtisadi və sosial problemlərinin operativ həlli üçün əsas amillərdən biri hesab olunur. Bu nöqteyi-nəzərdən problemin ümumi həlli və onun müxtəlif komponentləri daim diqqət mərkəzində olmuşdur.

Fikrimcə, hər bir müəssisə xalis mənfəətinin bir hissəsini xüsusi fondlara ("sosial fondlar", "istehlak fondları", "istedadların inkişafı fondları") ayırmaqla bu fondları formalaşdırmaq hüququna malikdir. Bu vəsaitlər yalnız sosial sektorun inkişafı üçün həvəsləndirmə, maliyyə yardımı, kadrların hazırlanması və yenidən hazırlanması (kapital qoyuluşu istisna olmaqla) kimi fəaliyyətlərin maliyyələşdirilməsinə sərf olunur və bu fəaliyyətlər yeni aktivlərin yaradılmasına gətirib çıxarmır.

İstehsalın sürətli inkişafı, milli iqtisadi modelin özülünü təşkil edir. Məhz bu məqsədə nail olmaq üçün, hesab edirəm ki, milli maliyyə resurslarını artırmaq və ölkə büdcəsinin böyük hissəsini istehsal yönümlü müəssisələrə, həmçinin də investisiyalara yönəltmək gərəkdir.

## ƏDƏBİYYAT

1. Abbasov A.H. "Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri". Bakı, Poliqraf , LTD, 2003, 332 s.
2. Həsənli M.X., Mehdiyeva L.T. və b. "Maliyyə". Dərs vəsaiti, Bakı, 2004.
3. Kərimov A.M və Quliyev N.R ."Maliyyə". Dərslik, Bakı,2001.
4. İsgəndərov R, Müəssisənin maliyyəsi."Dərslik", Bakı,2007.
5. Məmmədov S. Maliyyə. Ali məktəblər üçün dərslik. Bakı, 1997.
6. Novruzov N., Hüseynov X. "Maliyyə", Dərslik 2007, səh. 278.
7. Финансы предприятий. Учебное пособие. Под ред.Шеремет А.Д., Сайфулин Р.С. Москва, 1998.
8. Экономика предприятия. Учебник, 4-е издание, под редакцией В.Я. Горфинкеля и В.А. Швандара. Москва, 2007.

***Ламан Айдын кызы Мамедова***
***кандидат экономических наук, доцент,***

***магистрант, Айтекин Паша кызы Мамедова***
***Азербайджанский Университет Кооперации***
***aytekinmemmedova265@gmail.com***

### *Резюме*

**Цель исследования:** Основная цель исследования - изучить финансовые ресурсы и теоретические и методологические основы их формирования, а также разработать системную методологию прогнозирования финансов в процессе финансирования и наращивания

потенциала предприятия на основе изучения аспектов и концепции, идентификация также важна.

**Методология исследования:** Помимо обобщений по теме, в исследовании использовались аналитические методы.

**Значение применения исследования:** Формирование и эффективное использование финансовых ресурсов может быть ключевым показателем в развитии каждого предприятия (высокая ликвидность и стабильность), а также в обеспечении эффективной интеграции одного предприятия среди других крупных предприятий при своевременном решении социально-экономических проблем.

**Результаты исследования:** В настоящее время одним из важнейших вопросов является выявление и решение проблем, связанных с формированием финансового потенциала предприятий. Таким образом, исследование по данному вопросу показывает, что в той сфере, о которой мы говорим, есть много нерешенных вопросов.

**Оригинальность и научная новизна исследования:**

- проанализированы важнейшие особенности формирования финансовых ресурсов предприятия;
- определены и обоснованы основные направления повышения экономической эффективности использования финансовых ресурсов;
- всесторонне изучены теоретические и практические вопросы решения задач, связанных с формированием финансовых ресурсов предприятия;

***Ключевые слова: финансы, финансовые ресурсы, прибыль, финансово-хозяйственная деятельность.***

***Laman Aydin Mammadova,***
***PhD in Economics, dos.***

***master, Aytekin Pasha Mammadova***
***Azerbaijan Cooperation University***
***E-mail: aytekinmemmedova265@gmail.com,***

***Summary***

**Purpose of the research:** The main goal of the study is to study financial resources and the theoretical and methodological foundations of their formation, as well as to develop a systematic methodology for forecasting finance in the process of financing and building the capacity of an enterprise based on the study of aspects and concepts identification is also important.

**Research methodology:** In addition to generalizations on the topic, the study used analytical methods.

**Significance of the application of the research:** The formation and effective use of financial resources can be a key indicator in the development of each enterprise (high liquidity and stability), as well as in ensuring the effective integration of one enterprise among other large enterprises with timely resolution of socio-economic problems.

**Results of the study:** Currently, one of the most important issues is the identification and solution of problems associated with the formation of the financial potential of enterprises. Thus, research on this issue shows that in the area we are talking about there are many unresolved issues.

**Originality and scientific novelty of the research:**

- analyzed the most important features of the formation of financial resources of the enterprise;
- identified and substantiated the main directions of increasing the economic efficiency of the use of financial resources;
- comprehensively studied theoretical and practical issues of solving problems associated with the formation of financial resources of the enterprise;

***Key words: finance, financial resources, profit, financial and economic activity.***